*Əlavə III*
*Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin ____________2018-ci il tarixli, ___________________ nömrəli əmri ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin standartlaşma sistemi
# Test tapşırıqları və yoxlama-ölçmə materiallarının ekspertizası

(SOCARSS-003.2018)

---

**01.1. Standartlaşmanın məqsədi** – müəyyən edilmiş vaxt ərzində cavablandırılan və şəxsin bilik, bacarıq və vərdişlərini kəmiyyət və keyfiyyət baxımından qiymətləndirmək üçün tətbiq olunan standartlaşdırılmış test tapşırıqlarının və digər qiymətləndirmə materiallarının hazırlanması və ekspertizası işinin təşkili ilə bağlı münasibətlərin tənzimlənməsidir.

**01.2. Məsul qurum** – SOCAR-ın prezidentinin əmri ilə müəyyən edilir.

**01.3. Test proqramı** – müəyyən fəaliyyət istiqamətləri üzrə imtahanda təqdim ediləcək test tapşırıqlarına aid mövzuları özündə əks etdirən metodiki vəsait. Proqramda test tapşırıqlarının hazırlanmasında istifadə edilən mövzularla yanaşı, mövzulara uyğun ədəbiyyat siyahısı (normativ hüquqi aktlar, dərsliklər, dərs vəsaitləri və digər mənbələr) da göstərilir.

**01.4. Yoxlama-ölçmə materialı** – müəyyən istiqamətdə bilik və bacarıqların yoxlanılması məqsədilə hazırlanan vəsaitdir.

**01.5. Test tapşırığı** – test imtahanına cəlb edilən şəxsin müəyyən fəaliyyət istiqamətində bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi məqsədilə hazırlanan səmərəli yoxlama-ölçmə materialıdır.

**01.6. Test tapşırıqlarının və yoxlama-ölçmə materiallarının ekspertizası -** test tapşırıqlarının test proqramlarına, müvafiq standartların tələblərinə uyğunluğunun yoxlanılması, eləcə də aşkar edilmiş səhvlərin düzəldilməsi prosesidir.

**01.7. Test tapşırıqlarının və yoxlama-ölçmə materiallarının yoxlanılması –** test tapşırıqlarının və yoxlama-ölçmə materiallarının mətnindəki qrammatik və üslubi səhvlərin müəyyən edilməsi, mətnin formatı, şəkillərin, qrafiklərin və cədvəllərin tərtibatı və s. qiymətləndirilməsi, lazım gəldikdə korreksiya edilməsi məqsədilə onların yoxlanılması həyata keçirilir. Sahə üzrə qanunvericilikdə edilmiş dəyişikliklər, elmi-texniki tərəqqi və s. nəzərə alınmaqla test tapşırıqları mütəmadi olaraq yoxlamalardan keçirilir. Yoxlamanın nəticəsinə uyğun olaraq test tapşırıqlarının yenidən ekspertizasının məqsədəuyğunluğu da qiymətləndirilir.

**01.8. Test tapşırıqlarının tərtibi və ekspertizasının təşkili** – test tapşırıqları, eləcə də digər yoxlama-ölçmə materiallarının tərtibi və ekspertizası işlərinin təşkili Şirkətdaxili aparıldıqda müvafiq struktur bölmə, SOCAR-ın sifarişinə əsasən kənar təşkilat cəlb edilməklə aparıldıqda isə həmin təşkilat tərəfindən həyata keçirilir.

**01.9. Test tapşırıqlarının növləri –** sifarişdən asılı olaraq imtahanlarda test tapşırıqlarının aşağıdakı növlərindən istifadə edilir:

- **qapalı tipli** - verilən cavab variantlarından 1 (bir) doğru cavabın müəyyənləşdirilməsi tələb olunan test tapşırıqları;
- **açıq tipli** – cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazı ilə ifadə olunması tələb edilən test tapşırıqları;
- **esse tipli** - sərbəst şəkildə cavablandırılan tapşırıqlar.

**01.10. Psixometrik test tapşırıqları –** nizam-intizamı, liderlik və kollektivdə işləmək qabiliyyəti, təşəbbüskarlıq, novatorluq, ünsiyyət mədəniyyəti və s. şəxsi keyfiyyətlərinin qiymətləndirilməsini təmin edən test tapşırıqlarıdır. Əsasən kənardan cəlb edilən təşkilat tərəfindən təşkil edilir.

**01.11. Test tapşırıqlarının çətinlik dərəcələri -** test tapşırıqları çətinlik dərəcəsinə görə asan, orta və ya mürəkkəb olmalıdır;

- **asan tipli –** test mövzusu ilə bağlı sadə, ilkin bilikləri, ümumi yanaşma və təsəvvürlər haqqında anlayışları yoxlamaq üçün hazırlanmış tapşırıqlar;
- **orta tipli –** test mövzusu ilə bağlı bilik və bacarıqların ilkin səviyyədən üstün bilik və bacarıqları yoxlamaq üçün hazırlanmış tapşırıqlar;
- **mürəkkəb tipli –** cavablandırılması çətin olan, dərin bilik və xüsusi bacarıq, güclü təhlil etmə qabiliyyəti tələb edən sahə üzrə mürəkkəb məsələlərin həllini ehtiva edən test tapşırıqları:

Mürəkkəblik dərəcələrinin müəyyənləşdirilməsi test mütəxəssisləri tərəfindən təyin edilir.

**01.12. Test tapşırıqlarının tərtibinə dair tələblər** – açıq və qapalı tipli test tapşırıqları aşağıdakı tələblərə uyğun olaraq tərtib edilir:

- test tapşırıqları hazırlanmış test proqramı əsasında tərtib edilməli;
- vəzifələr üzrə test tapşırıqları hazırlanarkən vəzifə standartlarında müəyyənləşdirilmiş ixtisas səriştəlikləri əsas götürülməli;
- test tapşırığının şərti və cavabları dəqiq, aydın, birmənalı və mümkün qədər qısa olmalı;
- test tapşırığında düzgün cavab və onun hazırlanmasında istifadə olunan mənbə göstərilməli;
- test tapşırıqları qiymətləndirilən şəxsin bilik və bacarığının qiymətləndirilməsini təmin etməli;
- test tapşırıqlarına mübahisə doğurmayan, eləcə də boyük hesablamalar tələb etməyən şərtlər daxil edilməli;
- test tapşırığının şərt hissəsində inkar formalardan az istifadə edilməli;
- qısaldılmış terminlərdən az istifadə edilməli;
- bütün cavab variantları test tapşırığının əsas hissəsi ilə qrammatik olaraq uzlaşmalı;
- qapalı tipli test tapşırıqlarının cavablarından ancaq biri doğru olmalı, düzgün və düzgün olmayan cavablar öz quruluşuna, sözlərin sayına görə təqribən eyni olmalı;
- düzgün olmayan cavablar məntiqi cəhətdən əsaslandırılmalı və doğru cavaba yaxın olmalı;

**01.13. Test tapşırıqlarınının ekspertizasına dair tələblər –** Test tapşırıqlarının məzmununun ekspertizası zamanı aşağıdakılar qiymətləndirilir:

- test tapşırığının test proqramına uyğunluğu;
- test tapşırığının mürəkkəblik dərəcəsinin müəyyənləşdirilməsi;
- oxunması üçün həddən artıq vaxt tələb edən çoxsözlü çətin cavab variantlarının yolverilməzliyi;
- test tapşırığının cavablarının düzgünlüyü.

**01.14. Test tapşırıqlarında müəyyənləşdirilən səhvlər -** test tapşırıqlarının ekspertizası zamanı aşağıdakılar səhv kimi qəbul edilir:

- lazımsız mürəkkəblik, fikir dolaşıqlığının olması;
- şərtin birmənalı olmaması;
- düzgün cavab variantının və həllin aşkar görünməsi;
- cavab variantlarının mənasızlığı və real olmaması;
- qapalı tipli test tapşırıqlarında birdən artıq düzgün cavab variantının olması;
- cavab variantlarının tapşırığın şərti ilə uyğunsuzluğu;

**01.15. Test tapşırıqlarının strukturuna dair tələblər -** test tapşırıqları aşağıdakı texniki tələblərə müvafiq olmalıdır:

- test tapşırıqları ardıcıl nömrələnir və bir-birindən çətinliyinə görə fərqlənən 3 səviyyə üzrə - asan, orta və mürəkkəb səviyyələrdə tərtib edilir.
- test tapşırıqlarının ümumi sayında çətinlik dərəcələri müxtəlif olan tapşırıqlar təqribən eyni olmalıdır;
- qabiliyyət göstəricilərinə görə müxtəlif olan test tapşırıqlarının tərtib olunması təmin olunmalıdır;
- test tapşırıqları müvafiq bölməyə kağız və elektron variantda təqdim edilir. Test tapşırıqlarının kağız variantı test mütəxəssisi tərəfindən imzalanır.
- qapalı tipli hər bir test tapşırığına cavab variantları əlavə edilir. Cavab variantları alt-alta yazılır, yəni hər bir bənd yeni sətirdən başlayır.

**01.16. Test tapşırıqlarının və yoxlama-ölçmə materiallarının konfidensiallığı -** test tapşırıqlarının və yoxlama-ölçmə materiallarının hazırlanması, ekspertizası, saxlanılması və istifadəsi zamanı onların konfidensiallığı bu prosesə cəlb edilmiş bütün hüquqi və fiziki şəxslər tərəfindən təmin edilir. Konfidensiallığın qorunması müxtəlif texniki–proqram təminatı, eləcə də inzibati üsullarla təmin edilir. Konfidensiallığın qorunması ilə bağlı müddəalar bu işlərə cəlb edilmiş mütəxəssislərlə bağlanılmış müqavilədə əks olunur.

**01.17. Test tapşırıqları və yoxlama-ölçmə materiallarının mülkiyyətçisi –** SOCAR daxili imkanları hesabına və ya sifarişinə əsasən kənar təşkilatlar tərəfindən hazırlanmış test tapşırıqları və yoxlama-ölçmə materiallarının mülkiyyətçisidir.